**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMINDAN ÇIXARIŞ**

**№** 69 17 Aprel **2025-ci il**

**"İstehlak mallarının keyfiyyətinə nəzarət üzrə İctimai Komissiya"nın yeni tərkibinin təsdiq edilməsi haqqında**

"İstehlak mallarının keyfiyyətinə nəzarət üzrə İctimai Komissiya"nın yeni tərkibinin yaradılması haqqında Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 06 mart 2015-ci il tarixli, 49 saylı Sərəncamı ilə yaradılmış komissiyanın fəaliyyətinin səmərəliliyinin artırılması və aparılan kadr dəyişiklikləri ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 06 iyun 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.5.3-cü, 4.5.4-cü və 6.8-ci bəndlərinə əsaslanaraq

**Qərara alıram:**

**1.**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Aparatının yanında "İstehlak mallarının keyfiyyətinə nəzarət üzrə İctimai Komissiya"nın yeni tərkibi aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri:**

| | |
|---|---|
| - Hacıbaba Babayev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |

Scanned with CamScanner

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| - İskəndər Cahangir-zadə | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| - Vüsalə Eyvazova | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| - Fədai Hacıyev | Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru |
| - Qadir Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| - Fərdi Ağamalıyev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi səlahiyyətlərini müvəqqəti icra edən |
| - Ramil Abasov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi səlahiyyətlərini müvəqqəti icra edən |

Scanned with CamScanner

| | |
|---|---|
| - Əsəd Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 28 May qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi səlahiyyətlərini müvəqqəti icra edən |
| - Zaur Qafarov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| - Mübariz Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| - Dilbər Şükürova | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| - İsa Həbibzadə | Binəqədi Rayon Polis İdarəsinin-İctimai təhlükəsizlik şöbəsinin rəisi polis mayoru |
| - Mürsəl Eminov | Binəqədi bələdiyyəsinin sədri |
| - Bəylər Həsənov | Binəqədi qəsəbə bələdiyyəsinin sədri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən |

Scanned with CamScanner

| | |
|---|---|
| - Fərid Cəfərov | Biləcəri bələdiyyəsinin sədri |
| - Hümbət Hüseynov | M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri |
| - Nigar Məmmədova | Xocəsən bələdiyyəsinin sədri |
| -Sadiq Məmmədov | Bakı Şəhər Ticarət və Xidmət Departamentinin məsləhətçi-qrup rəhbəri |
| - Elmin Zamanov | Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi |

**2.Komissiyanın üzvlərinə tapşırılsın:**

- müvafiq ərazidə əhali tərəfindən istehlak edilən mal və məhsulların keyfiyyətinə nəzarət işini və saxta məhsulların istehsalı və satışının qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsini təmin etsinlər;

- istehlakçılara təqdim olunan mallarda (işlərdə, xidmətlərdə) nöqsanlar, yaxud təhlükəli mallar (işlər, xidmətlər) aşkar etdikləri hallarda bunlar barədə malların (işlərin, xidmətlərin) təhlükəsizliyinə nəzarəti həyata keçirən müvafiq dövlət orqanlarına məlumat verilməsini təmin etsinlər;

- istehlakçıların hüquqlarının müdafiəsi məqsədilə öz təşəbbüsü və ya istehlakçının müraciəti əsasında ehtiyac olarsa, məhkəmə qarşısında iddia qaldırılmasını təmin etsinlər;

Scanned with CamScanner

görülmüş işlər barədə hər rübün yekunu üzrə Binəqədi Rayon İcra Hakimiyyəti başçısına hesabat təqdim etsinlər.

3.Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 28 aprel 2022-ci il tarixli, 89 saylı Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

4. Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, Sərəncamın surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların**
**müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

Scanned with CamScanner